

bu artwork süni intellekt vasitəsilə hazırlanıb

code academy

# Proqramlaşdırma

#GələcəkBurada www.code.edu.az


function
İstənilən insan kompüterin bacardığı kodu yaza bilər. Yaxşı proqramçı isə insanların anlaya biləcəyi kodu yazır.
MARTİN FAULER
İngilis proqram tərtibatçısı, yazıçı

# PROQRAMLAŞDIRMA QLOBAL DÜNYADA

Süni intellekt və maşın öyrənməsindən tutmuş blokçeyn və əşyaların internetinə qədər proqramlaşdırma bütün dünyada inqilab edən ən qabaqcıl texnologiyaların başında dayanır.

Bugünkü qlobal mənzərədə proqramlaşdırmanın bu qədər vacib olmasının əsas səbəblərindən biri onun innovasiyaları təşviq etmək imkanlarının olmasıdır. Proqramçılar ideyaları funksional proqramlara və sistemlərə çevirməkdə unikal bacarıqlara malikdirlər.

Onlar innovativ konsepsiyaları həyata keçirə, sənayeləri dəyişdirə və mürəkkəb problemlərin həll üsulunu tapa bilirlər. Günümüzün sürətlə dəyişən qlobal mənzərəsində proqramlaşdırma sahəsi istənilən ölkənin cəmiyyətini, iqtisadiyyatını və sənayesini texnologiya ilə təchiz olunmuş gələcəyə doğru irəli aparan transformasiyaedici qüvvəyə çevrilib.

**Qlobal statistika göstərir**

**26,9** milyon nəfər — dünyada proqram tərtibatçısı var

**59,9%** — full stack developerdir

**43.73%** — back-end developerdir

**27.42%** — front-end developerdir

# PROQRAMLAŞDIRMA CODE ACADEMY-DƏ

Bu tədris proqramı fundamental HTML biliklərinin mənimsənilməsindən başlayaraq front-end və back-end əsaslı texnologiyaları əhatə edir. Tədris proqramı həm yerli, həm də beynəlxalq təşkilatların istifadə etdiyi texnologiyaları özündə birləşdirir. Belə ki front-end tədrisinin başlanğıcında HTML, CSS, JavaScript dilləri, daha sonra verilənlər bazası olaraq MongoDB sistemi izah edilir. Back-end tədrisində isə müasir texnologiya olan .NET Core framework və final layihəsinin hazırlanmasında, habelə idarə olunmasında DevOps (GitHub, Docker, RabbitMQ) texnologiyasından istifadə edilir.

Proqramlaşdırmanın əsaslarından əlavə olaraq dərs proqramında tələbələrin araşdırma və özünü inkişaf etdirmək bacarıqlarını gücləndirəcək metodlar və üsullar ətraflı şəkildə izah olunur. Tələbələrə komanda şəklində işləmənin prinsipləri, üstünlükləri öyrədilir. Mütəmadi olaraq verilən layihələr tədris sonunda tələbələrin ilkin portfoliolarını yaratmaqlarına köməklik edəcəkdir.




Qeyd olunan əmək haqqıları tam ştat və remote iş imkanları nəzərə alınaraq hesablanıb.



context

# BİLL QEYTS

Amerikalı biznes maqnat

Proqram təminatı sənətkarlıq və mühəndisliyin unikal birləşməsidir.

# FRONT-END ƏSASLI FULL STACK TƏDRİS PROQRAMI

1

## Veb proqramlaşdırma əsasları

Bu modul HTML işarələmə dili, CSS təsvir və Javascript proqramlaşdırma dilinin əsaslarını əhatə edir. Modulda HTML etiketlərinin yaradılması, CSS özəllikləri və onların dəyərləri, Sass texnologiyası, JavaScript Ecmascript 6 versiyası, DOM (Document Object Model), BOM (Browser Object Model), debugging və jquery kitabxanasından istifadə yolları tədris olunur.

2

## HTML, CSS (Fundamentals & Advanced)

Bu modul front-end tərəfinin təməl proqramlaşdırma dilləri sayılan HTML, CSS-in detallı şəkildə öyrənilməsini əhatə edir.

3

## JavaScript (Fundamentals & Advanced)

Bu modulda JavaScript dilinin təməldən başlayaraq mükəmməl şəkildə öyrənilir.

## 4 React (Fundamentals & Advanced)

Bu modul müasir front-end dillərindən sayılan REACT-ən əsasları, professional şəkildə öyrənilməsini və tətbiqini əhatə edir.

## 5 Next.js & TypeScript (Fundamentals & Advanced)

Bu modul front-end tərəfinin Api-lərlə inteqrasiyasını ve bu inteqrasiya üçün nəzərdə tutulmuş texnologiyaların öyrənilməsini əhatə edir.

## 6 Backend Technologies and Data Base (MongoDB)

Bu modul front-end tərəfi ilə back-end tərəfinin birləşdirmə texnologiyalarının öyrənilməsini, həmçinin verilənlər bazası ilə inteqrasiyasını əhatə edir.

## 7 Security (JWT)

Bu modul veb layihəsinin təhülkəsizlik tədbirlərini gücləndirmək məqsədilə istifadə olunan texnologiyaların izahını əhatə edir.

## 8 Design Patterns & MERN

Bu modul dizayn pattern-lərinin öyrənilməsi və MERN yanaşmasının icrasını əhatə edir.

## 9 e-Commers Project & SEO services

Bu modulda e-ticarət  tipli bir layihənin inteqrasiyası və hazır layihədəki SEO xidmətlərin əsasları öyrənilir.

# BACK-END ƏSASLI FULL STACK TƏDRİS PROQRAMI

1

## Tədrisə giriş və alqoritmlər

Bu modul proqramlaşdırmanın əsas prinsiplərini əhatə edir. Modulda proqramlaşdırma platformaları, paradiqmalar, alqoritmlər və onun tarixi, sadə diaqram çəkilişi, həmçinin elementlərin açıqlamaları kimi vacib məqamlar izah olunur.

2

## C# ilə proqramlaşdırmaya giriş

Bu modul kompüter daxilində kodların işləmə prinsipi və Microsoft tərəfindən yaradılan C# proqramlaşdırma dilində yazılan kodların izahını əhatə edir. Modulda C# tarixçəsi, obyekt yönümlü proqramlaşdırmanın əsas prinsipləri, design pattern-lər, S.O.L.I.D prinsipləri, data strukturları və digər məqamlar detallı şəkildə əhatə olunur.

3

## Verilənlər bazasının əsasları (MS SQL Server)

Bu modul SQL proqramlaşdırma dilində yazılan kodların izahını izahını verir. Modul QL server arxitekturası, data növləri, DDL və DML alt sorğuları, verilənlər bazasının qurulması və dizaynı kimi vacib məqamları əhatə edir.

## 4 ORM (Entity framework), ADO. Net texnologiyaları

Bu modulda verilənlər bazasına qoşulmaq üçün nəzərdə tutulmuş texnologiyalar və onlardan istifadə edərək verilənlər bazasına inteqrasiya öyrədilir.

## 5 Front-end texnologiyaları (HTML, CSS, Javascript)

Bu modulda tətbiqin back-end tərəfinin front-end tərəfi ilə əlaqəsi öyrədilir. Belə ki əvvəlcə front-end dilləri tədris edilir, daha sonra onun back-end tərəfi ilə inteqrasiyası tədris olunur.

## 6 ASP.Net Core (.Net 6) framework

Bu modulda .NET core framework texnologiyaları və demək olar ki, veb developmentin əsasını təşkil edən ASP.NET core detallı şəkildə öyrədilir. Bu modul ən böyük modullardan olub veb arxitekturasını əhatə edir.

## 7 API (REST, SOAP) Veb servislər

Bu modulda veb servislər, yəni API-lar detallı şəkildə öyrədilir və həm Soap, həm də Rest servisləri üzrə inteqrasiyaları əhatə edilir. Əlavə olaraq layihələrdəki təhlükəsizlik nüanslarının nəzərə alınması və JWT token texnologiyasının tətbiqi izah edilir.

## 8 Deploy prosesi və DevOps texnologiyaları(Azure, GitHub, Docker, Message Brockers) haqqında ümumi məlumat.

Bu modul lokalda hazır olan layihənin reala inteqrasiya olunması üçün nəzərdə tutulmuş texnologiyaları öyrədir. Modulda CMD Linux komandaları, GitBash-ın ətraflı izahatı və praktikası, GitHub repo ilə əlaqələrin yaradılması, terminalın IDE mətn redaktoru haqqında ümumi məlumat və üstünlükləri izah olunur.

# PROQRAM-LAŞDIRMAYA MARAĞI OLAN VƏ KARYERASINI BU SAHƏDƏ QURMAQ İSTƏYƏN HƏR KƏS İŞTİRAK EDƏ BİLƏR.

# HANSI BACARIQLARA SAHİB OLACAQSAN?

## Back-end əsaslı full stack

- C# dilinin quruluşunu, sintaks, semantikasını yazmaq və anlamaq
- SQL Server-də məlumat bazasının yaradılması, arxitekturanın və cədvəllər arasında əlaqələrin qurulması
- ORM (Entity Framework) texnologiyasını istifadə etməklə layihə və verilənlər bazası arasında əlaqənin təmin edilməsi
- Müasir əmək bazarının ehtiyaclarına əsasən API (REST, SOAP) texnologiyalarının tətbiq edilməsi
- Veb layihələrin hazırlanması üçün front-end biliklərin əldə edilməsi (HTML, CSS, Javascript)
- Asp.Net Core MVC framework-ündən istifadə etməklə veb layihələrin yazılması
- Veb layihələrin DevOps texnologiyalarından istifadə etməklə real serverlerə yerləşdirilməsi

## Front-end əsaslı full stack

- Təməl veb proqramlaşdırmanın əsasları HTML, CSS dillərinin öyrənilməsi
- Visual Studio Code istifadə edərək sadə veb səhifələrin yaradılmsı
- SQL, NoSQL və MongoDB üzərindən məlumat bazasının yaradılması və əlaqələrin qurulması
- JavaScript, React, TypeScript, Node.js, Next.js kimi front-end dillərinin öyrənilməsi və onlardan istifadə edərək layihələrin yazılması
- Müasir əmək bazarının ehtiyaclarına əsasən API (REST) veb servisləri ilə inteqrasiyanın öyrənilməsi
- Veb layihələrin strukturunun qurulması və təhlükəsizlik texnologiyalarından istifadə edilməsi
- Veb layihələrdə SEO xidmətinin əsaslarının öyrənilməsi




# CON ROMERO

Amerikalı tərtibatçı və dizayner

Proqramlaşdırma məntiqə əsaslanan son dərəcə yaradıcı bir sahədir. Halbuki, proqramistlərin yaradıcılıqla əlaqəsi olmadığı düşünülür.

# CODE ACADEMY TƏLƏBƏSİ OLMAQ

Code Academy-də tədris alan hər bir tələbə sahə üzrə bilik və bacarıqlarını inkişaf etdirməklə yanaşı, eyni zamanda bu sahənin peşəkarları ilə bir mühitdə olmaq imkanı qazanacaq, 8000 nəfərdən çox tələbəsi olan Code Academy ailəsinin bir parçasına çevrilərək, yeni dünyanın mütəxəssisləri ilə davamlı ünsiyyətdə olacaq və Open Space ərazisindən şəxsi və peşəkar inkişafı üçün istifadə edə biləcəkdir.

**+10.000**
**aktiv tələbə sayı**

**116**
**pedaqoji heyət**

**12 saat / 7 gün**
**"Open Space"-dən istifadə**



**Məzunlarımızın işlədiyi top şirkətlər**

PAŞA Bank, Kapital Bank, kontakt, Azercell, Google, HAVAS, GUAVAPAY, AZINTELECOM, Bolt, asan xidmət, bakcell, amazon.com, azericard, PAŞA Holding, endorphin

# TƏLƏBƏLƏRİN UĞUR HEKAYƏLƏRİ



**İrada Feyzullayeva**
Software Developer
**Freelance**

Qarşına təkcə hədəf qoymaq və xəyal etmək kifayət etmir, nəaliyyətə çatmaq üçün hərəkətə keçməlisən. Beləcə, Proqramlaşdırma biliyimi artırmaq üçün akademiyaya gəldim.



**Rəsul Ağarzayev**
Frontend mühəndisi
**Gamesys, Estonia**

Akademiyadan ilk gözləntim yüksək səviyyəli təhsil, karyeramı bu sahə üzrə davam etdirmək və əhatəmi genişləmdirmək idi. Bunların hamısına nail ola bildim.



**Yasin Uğur**
Software engineer
**AREALai, Türkiyə**

Code Academy-ə gəlməkdə əsas məqsədim karyerama tez zamanda başlamaq idi. Elə də oldu. Həm beynəlxalq Microsoft sertfikatının sahibi oldum, həm də məzun olduqdan qısa zaman sonra işləməyə başladım.



**Nurlan Hüseynov**
Development Team Lead
**Kapital Bank**

Təhsilim müddətində səhhətimlə bağlı problemlər yaşadığım üçün son imtahandan kəsildim. Ancaq Code Academy-nin mənə təklif etdiyi zəmanətli təhsil sayəsində yenidən tədrisə başladım və yüksək şərəf diplomu ilə bitirdim.




details

Dünyanın istənilən yerində ən təhlükəli cümlə: "Biz həmişə belə edirdik".

# QREYS HOPPER

Amerikalı kompyüter mühəndisi

# Tədris proqramı cədvəli

| Həftəiçi: Bazar ertəsi - Cümə (5 gün) | |
|---|---|
| **Səhər:** 09:00 - 12:45 | 23 həftə |
| **Günorta:** 14:00 - 17:45 | 23 həftə |
| **Axşam:** 19:00 - 21:45 | 30 həftə |

| Həftəsonu: Şənbə, Bazar (2 gün) | |
|---|---|
| **Səhər:** 10:00 - 14:45 | 36 həftə |
| **Günorta:** 15:30 - 20:15 | 36 həftə |

* Tədris proqramı lab saatları daxil ümumilikdə 360 saat davam edir.

Növbəti tədris hədəfin: **"Kiber Təhlükəsizlik"**


{ }
enter
ADA
LAVLEYS
İlk qadın proqramçı
Sənin istənilən bəladan ən yaxşı və etibarlı sığınacağın öz elmindir.

code academy

Nizami küç. 203B, AF Business House, 2-ci mərtəbə
+99412 310 0113 / +99450 444 2633
info@code.edu.az / www.code.edu.az